BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 *Humanitar elmlər seriyası* 2011

# TARİX

UOT 94 (470)" 19/..."

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏRQİ SLAVYAN ÖLKƏLƏRİNİN SƏNAYE TARİXİNDƏN

**T.T.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***valiyevtofiq@mail.ru***

*Məqalədə 1900-1903-cü illərin iqtisadi böhranının Şərqi Slavyan ölkələrinirn iqtisadiyyatına mənfi təsiri və sonrakı dövrdə sənaye sahələrində baş vermiş inkişafdan bəhs edilir. Müəllif həmin sahələrdə fəaliyyət göstərən çoxsaylı səhmdar cəmiyyətləri və inhisarların istehsalda hakim rola malik olmaları məsələsinə xeyli yer vermişdir.*

**Açar sözlər:** böhran, canlanma, inkişaf, istehsal, səhmdarlıq, inhisar, bank, məbləğ, idxal, ixrac

Məlum olduğu kimi, Şərqi Slavyan ölkələrinin iqtisadi inkişafı haqqındakı statistik məlumatlar bir daha göstərirdi ki, əsrin son rübündə bütün sənaye sahələrində 2 dəfəyə qədər artım olmuşdur. Lakin buna baxmayaraq, bu ölkələr sənayenin inkişafına görə qabaqcıl sənaye ölkələrindən geri qalırdı. Qərb ölkələrindən xeyli gec kapitalist inkişaf yoluna qədəm qoymuş Şərqi Slavyan ölkələrinin iqtisadiyyatında əsrin son on ilində görünməmiş canlanma və inkişaf baş vermişdi. Lakin bu inkişaf fasiləsiz ola bilməzdi. Ona görə də, XIX əsrin sonunda bir sıra kapitalist ölkəsini bürümüş dünya iqtisadi böhranı bu ölkələri də haqladı. Lakin bu ölkələrin öz daxili şəraiti ilə bağlı olan səbəblər üzündən iqtisadi böhran həmin ölkələrdəkindən, nəticə etibarilə, daha dağıdıcı olmuşdu (3, 171).

Hər bir inkişaf etmiş kapitalist ölkəsində olduği kimi, Şərqi Slavyan ölkələrinin iqtisadiyyatı da tsiklik inkişafa mübtəla olmuşdu. Bu inkişaf üçün xarakterik cəhət isə canlanma, yüksəliş, böhran və durğunluqdur. Sənaye yüksəlişindən sonra 1899-cu ildə iqtisadiyyatı yenidən böhran bürüdü. Bu böhran Şərqi Slavyan ölkələri üçün daha ağır oldu və uzun sürdü. Böhranın ilk əlaməti əsas sənyae məhsullarının qiymətdən düşməsilə başladı. Bundan əvvəl isə Avropada pul böhranının başlanması (1899) ilə əlaqədar Dövlət bankı və digər səhmdar banklar krediti azaltdılar və faizi artırmağa başladılar. Daxili bazarda

xeyli artıq mal ehitiyatı toplanmışdı. Bu da öz növbəsində müəssisələrin səhmlərinin kursunun aşağı düşməsinə səbəb olmuşdu. Demək olar ki, bütün müəssisələrdə istehsal ixtisar edilmişdi. Ölkə üzrə sifarişlər azaldığına görə nəinki xırda və orta müəssisələr, hətta iri fabrik-zavodların bir hissəsi bağlanmışdı.

Böhran illərində bağlanan müəssisələrin sayı 3 mini keçmişdi. 200 min nəfər işsizlər ordusu yaranmışdı (4, 266). Böhran, ən iri müəssisələrə nisbətən az ziyan vurmuşdu. Kombinə edilmiş müəssisələrin istehsal etdiyi müxtəlif çeşidli məhsullara tələbin müxtəlif səviyyədə olması onlara öz fəaliyyətlərini davam etdirməyə imkan verirdi. Böhran nəticəsində Şərqi Slavyan ölkələrinin sənayesində istehsalın təmərküzləşməsi artmışdı. Bu, özünü metallurgiya, maşınqayırma və yanacaq istehsalı sahələrində daha qabarıq şəkildə göstərirdi. Belə ki, metallurgiya sənayesində bir sıra domna peçlərinin ixtisarına baxmayaraq, 1899-1902-ci illərdə çuqun istehsalı hələ bir qədər də artmışdı. Amma Donbasda daş kömür və Bakıda neft çıxarılması aşağı düşmüşdü.

Böhranın yüngül sənaye sahələrinə təsiri az olmuşdu. Bu sahələrin məhsulunun əsas alıcıları daxili bazarda olduğuna görə 1900-1903-cü illərdə məhsuldarlığın artması hesabına daxili bazarın alıçılıq qabiliyyəti bir qədər də yüksəlmişdi (3, 171).

1900-1903-cü illərdə ağır sənaye sahələrində məhsul istehsalı 15%-dən 37%-ə qədər azalmışdı. Cənub regionlarında mineral və duru yanacaq hasilatı da ixtisar olunmuşdu. Böhran illərində Şərqi Slavyan ölkələrində kapital axını demək olar ki, dayandırılmışdı bununla yanaşı ölkənin daxilində sənayeyə qoyulan kapitalın həcmi də azalmışdı. Başqa sözlə desək, səhmdarlıq-səhmdar cəmiyyətlərin təsisi prosesi xeyli zəifləmiş və onların sayı azalmışdı.

Çar hökumətinin göstərişi ilə böhranın təsirini bir az yüngülləşdirmək, iflas olmaq təhlükəsində qalan müəssisələrə kömək etmək məqsədilə Dövlət bankı onların səhmlərini almağa məcbur olmuşdu. Ona görə də böhranın təkcə iki ili ərzində Dövlət bankı uçot-borc əməliyyatını 300 milyon manat artırmışdı. Böhranın təsirini azaltmaq üçün hökumət onsuz da yüksək olan gömrük haqqını bir az da artırdı. İxracatda dempinq tətbiq etməyə başladı. Həm də xaricə verilmiş sifarişlərin miqdarını ixtisar etməklə onu ölkə daxilində müəssisələrə verilən dövlət sifarişi əvəz etdi. Sifarişlər yüksək qiymətlərlə – bazardakı qiymətlərdən daha baha qiymətlərlə verilirdi ki, müəssisələr böhran şəraitində ziyana düşməsinlər. Əlbəttə, bütün kapitalist sisteminə xas olan bir prosesi – böhranı dayandırmaq çar hökumətinə müyəssər olmadı. Amma dövlətin maliyyə yardımı onun vurduğu zərbələri xeyli yüngülləşdirirdi.

Şərqi Slavyan ölkələrinin kənd təsərrüfatının vəziyyəti sənayedən geri qalmırdı. Məhsuldarlığın azalmasına 1901-ci ildə bir sıra quberniyalarda məhsulsuzluq da əlavə olundu. Kənd təsərrüfatına dair ayrıca danışacağıq və burada daha geniş söhbətə lüzum yoxdur.

İnhisarçı kapitalizmdən əvvəlki kapitalizmin inkişaf edib inhisarçı kapitalizmə keçməsi üçün əsas şərtlər sənayenin başlıca-aparıcı sahələrinin inkişafı, istehsalın yüksək dərəcədə təmərküzləşməsi və ictimailəşdirilməsi, eləcə də kapitalın mərkəzləşməsidir. İnhisarlaşma əsasən Cənubun yeni sənaye sahələrini (daşkömür, neft və metallurgiya), xüsusilə texniki cəhətdən təkmil texnika ilə təchiz edilmiş müəssisələri əhatə etmişdi. İri inhisar birlikləri hələ keçən əsrin 80-ci illərində yaradılmışdı. Sonralar nəqliyyat, maşınqayırma istehsalında «Vaqon istehsalı zavodları ittifaqi», «Bakı ağ neft zavodçuları», «Yeddi firma ittifaqı» sindikatları neft hasilatı və neft emal edən müəssisələrin 97%-ni birləşdirirdi. Eyni xarakterli inhisarlar toxuculuq və şəkər sənayesində də meydana gəlmişdi. Toxuculuqda fransız kapitalının rolu böyük idi. Bu inhisarların əksəriyyəti sindikat, bir qismi isə kartel formasında fəaliyyət göstərirdi. 1899-1903-cü illərin iqtisadi böhranı sənayenin inhisarlaşmasına təkan verdi. Sənayenin inhisarlaşmasının ikinci mərhələsində (1900-1903-cü illərdə) inhisarlar təsərrüfat həyatının əsas dayaqlarından birinə çevrilmişdi. Ağır sənayenin, demək olar ki, bütün sahələrini, eləcə də, yüngül sənayenin bəzi sahələrini inhisar müqavilələri əhatə etmişdi. Elə bu dövrdən iri sənaye müəssisələri ilə banklar arasında sabit əlaqələr yaradılmışdı. Təşkilati baxımdan inhisarlar arasında sindikat forması üstünlük təşkil edirdi. Hökumətin iqtisadi siyasəti sənayenin inhisarlaşmasına kömək edirdi, çünki hökumət iri müəssisələrin iflasdan qurtarmalarını məhz onların inhisarlaşmasında görürdü. Əslində verilmiş qanunlarla inhisarların yaradılması qadağan idi. Həyatda isə, əksinə, hökumət bu işə rəsmi yaxud da qeyri-rəsmi formada rəvac verirdi. İnhisar birliklərinin rəhbər orqanları – sifarişləri tənzim edən Şuralar təşkil edilirdi. İnhisar qiymətlərini bu şuralar müəyyən edir, kontragentlər, yəni inhisar ittifaqına daxil olmayan müəssisələr isə məhsula qiymətləri özləri qoyurdular. Lakin kontragent müəssisələr sifarişləri Şuranın icazəsi olmadan qəbul edə bilməzdilər. Əks təqdirdə, cərimə verməli olurdular. İnhisar ittifaqlarına daxil olan müəssisələr arasında qarşılıqlı müqavilələr bir qayda olaraq 3-5 ilə bağlanılırdı. Müddət başa çatanda ya ittifaq dağılır, ya da yeni müddətə təzə müqavilələr bağlanılırdı (4, 278; 1, 27).

Hər iki əsrin ayrıcında Şərqi Slavyan ölkələri sənayesinin əsas sahələrində inhisarlar yaradılmışdı. Metallurgiya sənayesində rels istehsal edən kartel (1900), «Prodamet» sindikatı (1902), truboprokat karteli (1902), «Krovlya» sindikatı, mis prokatı zavodları sindikatı (1903), «Prodparovoz» (1901), «Prodvaqon» (1904), «Qvozd» sindikatı, cənub sementi karteli (1900) və onlarla başqa inhisar fəaliyyət göstərirdi. 1903-cü ildə Nobel qardaşları şirkəti ilə «Mazut» cəmiyyəti birləşərək «Nobel-Mazut» kartelini yaratdılar. Sənayenin inhisarlaşması təmərküzləşməni daha da gücləndirmişdi. 1903-cü ildə Şərqi Slavyan ölkələridə sənaye fəhlələrinin 48%-i bütün müəssisələrin cəmi 4%-ni təşkil edən ən iri müəssisələrdə mərkəzləşmişdi. Belə yüksək təmərküzləşmə müəssisələrin əsasən səhmdar cəmiyyətlərinə məxsus olmaları ilə izah edilməlidir (4, 278).

XX əsrin əvvəllərində sənayedə bankların rolu artmışdı. Onların demək olar ki, hamısı inhisar ittifaqlarının fəaliyyətində yaxından iştirak edirdilər. Bank kapitalı sənaye kapitalı ilə qarışıb qovuşmuşdu. Nəticədə isə maliyyə kapitalı və maliyyə oliqarxiyası (oliqarxiya – bir ovuc inhisarçı kapital numayəndəsinin siyasi və iqtisadi hökmranlığı-**T.V.**) meydana gəlmişdi. XX əsrin ilk illərində banklar metallurgiya sənayesinə qoyulmuş kapitalın 50%-ə, kömür sənayesində 60%-ə, elektrotexnikada 80%-ə nəzarət edirdi. Şərqi Slavyan ölkələri banklarının əsas kapitalında xarici kapitalın faizi yüksək idi. Burada milli kapital üstünlüyə malik deyildi. Şərqi Slavyan ölkələri, xüsusən Rusiya xarici ölkələrə kapital əvəzinə əsasən əmtəə ixrac edirdi ki, XX əsrin əvvəllərində imperiya inhisarçı kapitalının bir xüsusiyyətini məhz bu təşkil edirdi. İmperiyadan ixrac olunan kapitalın ümumi məbləği Avropa ölkələri ilə müqayisədə cüzi idi. Bununla belə Rusiya müstəmləkə ölkələri arasında ikinci yerdə gedirdi. Müstəmləkə torpaqları metropoliya torpaqlarından 3 dəfədən çox idi. XX əsrin ilk illərində Rusiyanın 45 sənaye sahəsində 140-a qədər inhisar ittifaqı fəaliyyət göstərirdi (1, 72-73; 4, 274).

1903-cü ildə yenicə böhrandan çıxan sənayenin tsikli yenidən rus-yapon müharibəsinin başlanması ilə pozuldu və beləliklə də durğunluq, geriləmə dövrü başladı (4, 258).

İmperiyada bu dövrün özünə məxsus cəhətləri vardı. Rusiya kapitalizmi burjua-demokratik inqilabının əsas məzmununu təşkil edən sosial dəyişiklikləri başa çatdırmadan XX əsrə keçmişdi. Ona görə də inhisarlar və maliyyə kapitalı Şərqi Slavyan ölkələrində mülkədar torpaq sahibliyi, çar mütləqiyyəti ilə yanaşı mövcud idi. Məhz bu səbəbdən burjua-demokratik inqilabının vəzifələri həll edilmədiyindən ölkədə ictimai ziddiyyətlər getdikcə kəskinləşirdi.

XX əsrin əvvəllərində Şərqi Slavyan ölkələri dünya kapitalist təsərrüfatının ayrılmaz hissəsini təşkil edirdi. Əsrin əvvəlindən bu ölkələr iqtisadi böhrana və geriliyə düçar olmuşdu. Burada yalnız 1909-cu ildən etibarən iqtisadi həyatda canlanma başlamışdı. Avropa ölkələrində sənaye yüksəlişi 1904-1907-ci illəri əhatə edirdi. 1907-ci ilin sonunda isə burada yeni böhran başlamışdı.

Sovet-rus iqtisadçıları 1904-1908-ci illəri rus sənayesində durğunluq, gerilik dövrü kimi qiymətləndirirdilər. Əlbəttə, onlar bunu əvvəlki iqtisadi böhranla izah edirdilər. Lakin bu illərin durğunluğunun əsas səbəbləri iki siyasi hadisə ilə də bağlı olmuşdur. Bunun biri rus-yapon müharibəsi, digəri 1905-1907-ci illərin birinci rus inqilabıdır. Müharibə xərcləri dövlət büdcəsinə çox ağır zərbə vurmuşdu. Hökumət maliyyə iflası qarşısında durmuşdu. Çar hökuməti Qərbin verdiyi borcun hesabına dayanırdı. 1904-1907-ci illərdə bir verst belə yeni dəmir yol xətti çəkilməmişdi (4, 258).

İnqilab illərində nə yerli, nə də əcnəbi kapitalistlər iqtisadiyyata kapital qoymaq istəyirdilər.

Sənayenin istehsal vasitələri istehsal edən hissəsi özünə gələ bilməmişdi. İstehlak malları istehsal edən sənaye sahələrində az-çox irəliləyiş müşahidə

edilirdi. 1908-ci ilədək mövcud olan iqtisadi inkişaf bir növ ziddiyyətli xarakterdə idi. Geriliklə yanaşı sənayedə yeni texnika tətbiqi də artırdı. Ona görə də Cənub regionları yenə metallurgiyada mühüm rol oynayırdılar. Cənubdakı 5 ən böyük zavod bu ölkələrdə istehsal olunan çuqunun 40 %-ni verirdi. Uralda da müəyyən tərəqqi əlaməti sezilirdi. Bank-kredit sistemi də getdikcə möhkəmlənirdi.

1909-1914-cü illərin sənaye yüksəlişi əvvəlki iqtisadi yüksəlişdən fərqli olaraq inhisarçı kapitalizmin hökmranlığı şəraitində baş vermişdi. XIX əsrin 90-cı illərinə nisbətən sənaye məhsulu 1909-ci ildə iki dəfə çox olmuş, fəhlələrin sayı 1,5 dəfə artmışdı. Əhalinin alıcılıq qabiliyyətinin artmasına 1905-ci ildə vıkup ödənclərinin (ildə orta hesabla 85 mln. man.) ləğv edilməsinin müsbət təsiri vardı. Əlbəttə, belə bir şəraitdə ölkədə pul bazarının və maliyyələşmə mənbələrinin imkanı artmışdı. 1909-1913-cü illərdə ticarət banklarına əmanət qoyuluşunun və yeni hesabların açılışı hesabına ümumi məbləğ 2,5 dəfə artaraq, 3,6 milyard manata qalxmışdı. Şərqi Slavyan ölkələrində ilk dəfə olaraq daxili mənbələr hesabına metallurgiya müəssisələrinə, metal emalı, maşınqayırma və yanacaq sənayesinə iri həcmdə vəsait buraxılmışdı.

XIX əsrin 90-cı illərində orta hesabla hər il sənayeyə qoyulmuş 160 mln manat əvəzinə bu illərdə 380 mln manatdan çox maliyyə vəsaiti qoyulurdu. Bu məbləğ daha çox ola bilərdi, amma Stolıpin hökuməti aqrar qanunların verilməsi ilə bağlı olaraq 1 milyard manat kapitalı Torpaq banklarının əməliyyatına cəlb etmişdi. Ona görə də xarici kapital axını davam etdirilirdi. Lakin onun xüsusi çəkisi əvvəlki dövlərdəkindən aşağı idi (4, 275).

1909-1913-cü illərdə metallurgiya və neft sənayesinə kapital qoyuluşunda elə ciddi dəyişiklik olmasa da hər iki sahədə qiymətlərin bahalanması baş vermişdi. Hazır metalın qiyməti 20%, antrasitinki 40%, neftinki 2 dəfə artmışdı. Toxuculuq məmulatı o qədər də baha deyildi. Bakıda dərin quyuların qazılması üçün əlavə kapital sərf olunmurdu. Ona görə 1913-cü ildə neft çıxarılması 1901-ci ildəkindən 20% az olmuşdu. Amerikada neft sənayesinin, həmçinin Rusiyada ağır sənayenin inkişafı fonunda neftin azalması fövqaladə bir hadisə hesab olunurdu. Bu, daxili səbəblərdən daha çox xarici amillərlə bağlı idi (4, 260).

Müharibə ərəfəsindəki iqtisadi yüksəliş öz intensivliyinə görə XIX əsrin 90-cı illərindən fərqlənməsə də müddəti nisbətən az olmuşdur.

Ağır sənaye məhsulu ümumi sənaye məhsulunun 38,5%-ni təşkil edirdi ki, bu da 1900-cü ildəkindən çoxdur. Şərqi Slavyan ölkələrində sənayenin inkişaf sürəti Avropadakından yuxarı idi. 1909-1913-cü illərdə dünya üzrə çuqun əridilməsi 32%, Amerikada 20%, Almaniyada 50% artdığı halda, Şərqi slavyan ölkələrində artım 64% təşkil edirdi. Rusiya polad əridilməsində də irəlidə gedirdi (6, 343; 4, 261).

Şərqi Slavyan ölkələri üzrə müəssisələrin ümumi sayı 1913-cü ildə təxminən 30 min və həmin müəssisələrin istehsal etdiyi məhsulun illik istehsal məbləği 6559 milyon manat təşkil edirdi. Bu, 1900-cu ildəkindən 1,5 dəfədən çox idi (4, 266).

Çuqun əridilməsi 1900-cu ildəkindən 1913-cü ildə 283 (4,3 mln. ton) milyon puda çatmışdı, (bunun üçdə iki hissəsindən çoxunu Cənub regionu vermişdi). Polad əridilməsi müvafiq illərdə 133 milyon puddan 295 milyon puda, kömür 1,2 milyard puddan 2,2 milyard puda (bunun dörddə üçü Cənubda çıxarılmışdı), neft isə, əksinə, 706 mln. puddan 561 mln. puda (təxminən 9 mln. ton) duşmuşdu ki, bunun da 408 mln. pudu Bakı neft rayonunun payına düşürdü (1, 69; 4, 265).

Maşınqayırmada Rusiya imperiyası Avropa ölkələrindən geri qalırdı. 1912-ci ildə idxal edilmiş maşınların ümumi miqdarı ilə ölkə daxilində istehsal olunmuş maşınların miqdarı demək olar ki, bərabər idi. Maşınqayırma zavodlarının verdikləri məhsulun dəyəri 1900-cü ildəki 227 mln. manatdan 1913-cü ildə 330 mln. manata çatmışdı. Başqa metal emalı müəssisələrini də buraya əlavə etsək, onda müvafiq illərdə artım 195 mln. manatdan 652 mln. manata qalxmış olar.

Əlvan metallurgiyada artım daha qabarıq idi. Rus-Yapon müharibəsi misə olan tələbatı (kabel, mis məftil və s.) artırmışdı. Həm də əsrin əvvəlində Rusiyada işlənən misin çoxu xaricdən gətirilirdi. Əgər 1901-ci ildə bu ölkələrin sənaye sahələrində 1,2 mln. pud mis işlənmişdisə, 1904-cü ildə bu, 1863 min puda qalxmışdı. Elektrik maşınları və transformatorların istehsalında mis qatışığı 30%-ə qədər təşkil edirdi. 1900-cü ildə mis məftil və kabellərin ümumi çəkisi 274 min pud idisə, 1908-ci ildə bu, 734,3 min və 1912-ci ildə 1406 min puda çatmış, yəni 5 dəfə artmışdı. Ölkə daxilində mis istehsalının artmasına 1906-cı ildə mis üzərinə qoyulmuş yeni gömrük tarifinin böyük təsiri olmuşdu. Ona görə də idxal olunan əcnəbi misin ümumi miqdarı bir neçə dəfə azalmışdı. Əgər 1904-cü ildə xaricdən 1241 min pud mis gətirilmişdisə, 1913-cü ildə onun miqdarı 376 min puda enmiş, yəni 3 dəfə azalmışdı (2, 32-35).

Müvafiq dövrdə ölkədə mis istehsalı görünməmiş miqyas almışdı. Əgər 1910-cu ildə Rusiyada əlvan metallurgiya müəssisələri 1378 min pud mis istehsal etmişdilərsə, 1914-cü ildə həmin rəqəm 2 mln. puda yaxın olmuşdu. 1913-cü ildə Moskvada mis prokatı zavodlarının nəhəng inhisarı meydana gəldi. Bu inhisara qarşı mübarizə məqsədilə 1907-ci ildə mis istehsal edən zavodlardan 7-sində «Mis» sindikatı yaradıldı. «Mis» sindikatı tərkibinə daxil olan zavodlar 1910-cu ildə Rusiyada istehsal edilmiş misin 56,3%-ni verirdisə, bu, 1914-cü ildə 91%-i ötmüşdü (2, 37).

Yanacaq sənayesi sahələri isə o qədər də inkişaf etməmişdi. 1909-1913-cü illərdə kömür sənayesində artım 44% təşkil etmişdi.

Yüngül sənaye sahələri də nisbətən ləng inkişaf edirdi. Ən çox inkişaf edən sənaye sahələri o sahələr idi ki, oraya güclü kapital qoyulurdu.

Sənayedə səhmdarlıq geniş şəkil almışdı. 1912-ci ildə səhmdar cəmiyyətlərinin təsisi səviyyəsi XIX əsrin sonundakı səviyyəni ötmüşdü. 1910-1913-cü illərdə 1112 mln. man. kapitalla 757 səhmdar cəmiyyəti fəaliyyətə başlamışdı. Əvvəlki dövrlərdə təsis edilmiş səhmdar cəmiyyətləri öz kapitalını 1 milyard manata qədər artırmışdı. Şərqi Slavyan ölkələri üzrə fəaliyyət göstərən

səhmdar cəmiyyətlərinın ümumi sayı 1914-cü ildə 2300-ə, onların əsas kapitalı isə 4650 milyon manata bərabər idi. Bu cəmiyyətlərdən 230-u xarici kapital hesabına yaradılmışdı. Onların əsas kapitalı 587,3 milyon manat məbləğində olmuşdu (7, 230).

Sənaye yüksəlişi ümumrusiya hadisəsi idi. Ona görə də sənayenin coğrafi yerləşməsində elə bir əsaslı dəyişiklik baş verməmişdi. Elə əvvəldə olduğu kimi sənayenin mərkəzləşməsində aparıcı rol Mərkəzi – sənaye rayonuna məxsus idi. Peterburq metal emalı və maşınqayırmanın mərkəzlərindən biri olaraq qalırdı (şimal – qərb regionu). Pribaltika, Cənub, Ural, Polşa və Azərbaycan Rusiyada sənaye məhsulunun 75%-ni verirdi və fəhlələrin 79%-i elə bu regionlarda təmərküzləşmişdi. Cənub regionu (Donbas və Krivoy Roq) Rusiya üzrə kömürün 80%-ni və çuqun əridilməsinin isə 70%-ni verirdi. Dağ – mədən sənayesində Ural bu regiondan çox geri qalırdı. Polşa həm kömür çıxarılması, həm metal – maşınqayırmada və həm də toxuculuqda mühüm rol oynayırdı. Neft istehsalında Azərbaycan aparıcı rola malik idi (4, 264-265).

Bununla belə Şimal quberniyalarında meşə materialları hazırlanır, Volqa boyu quberniyalarda başlıca olaraq yeyinti sənayesi, Volqanın aşağı hissəsində balıq sənayesi və duz istehsalı inkişaf etmişdi. Bessarabiyada da əsasən yüngül və yeyinti sənayesi geniş yayılmışdı. Pribaltikada yüngül, yeyinti sənaye sahələri ilə yanaşı maşınqayırma da müəyyən rol oynayırdı. Şimali Qafqazda dağ-mədən (Qroznıda neft hasilatı) istehsalı ilə bərabər sement və yeyinti sənayesi də əsas rol oynayırdı. Mərkəzi Asiya və Qazaxstanda sənaye sahələri kapitalistcəsinə inkişafa yenicə başlamışdı. Əsas yeri xırda sənaye tutur, o cümlədən sənətkarlıq üstünlüyə malik idi.

Öyrənilən dövrdə, xüsusən 1913-cü ildə, yuxarıda deyildiyi kimi, imperiya üzrə təxminən 30 min fabrik-zavod və dağ-mədən müəssisəsində 3,1 mln. nəfər fəhlə işləyirdi və onların istehsal etdikləri məhsulun illik istehsal məbləği 7,3 milyard manat təşkil edirdi. Xırda istehsalda 800 min nəfərdən çox fəhlə ildə 700 mln. manatlıqdan çox məhsul istehsal edirdi. Deməli, bəhs olunan sənaye sahələrində və xırda istehsalda 8 milyard manatlıq məhsul əldə edilirdi. Bu isə əkinçilik və maldarlıq məhsulunun ümumi dəyərindən bir qədər azdır. 600 min nəfərdən çox adam sənətkarlıqla məşqul olurudu.

Kəndli peşələri geniş yer tuturdu. Kəndlilər ilin 5-6 ayını peşələrlə məşğul olurdular. Belələrinin sayı 3,5-4 mln. nəfərə çatırdı. Yüz minlərlə (2 mln. nəfərə qədər) adam meşə materialı sənayesində, inşaatda və b. sahələrdə çalışırdı.

Gətirilmiş statistik məlumat göstərir ki, XX əsrin əvvəlində Şərqi Slavyan ölkələrində sənaye qeyri-bərabər şəkildə inkişaf edirdi. Bununla bərabər qeyd etmək lazımdır ki, iri sənayenin iqtisadiyyatda hakim rolu təmin edilmişdi. 1912-ci ildə Şərqi Slavyan ölkələrində 255 metallurgiya zavodu, kömür çıxarılmasında 568 müəssisə, Bakı neft rayonunda 170 hasilat və 100-dən çox neft emalı müəssisəsi fəaliyyət göstərirdi. Elektrotexnika üzrə 31 zavod, toxu-

culuqdakı 840 fabrikdə 9 milyon əyirici iy və 210 mindən çox toxucu dəzgahı işləyirdi. Sənayenin texniki təchizi də artmışdı (1, 69; 4, 267-268).

Əvvəlki dövrlərdə olduğu kimi, yenə də toxuculuq sənayesində çalışan fəhlələr fabrik-zavod fəhlələrinin 43%-ni təşkil edirdi. Metal emalı, maşınqayırma, metallurgiyada fəhlələrin 35%-i cəmləşmişdi. Rusiyanın ümumi sənaye məhsul istehsalında toxuculuq və yeyinti sənayesinin birgə xüsusi çəkisi (51,8%) üstün idi (6, 304).

**Bank sistemi.** 1914-cü ilə yaxın Şərqi Slavyan ölkələri inkişaf etmiş səhmdar-ticarət bankları sisteminə malik idilər. Yenə də Dövlət bankı üstün idi. 1908-1913-cü illərdə banklar və onların şöbələrinin sayı 2 dəfə artaraq 2400-ə çatmışdı. Bütün səhmdar-ticarət banklarının vəsaiti 7 milyard manat və onların fəal əməliyyatı 7,2 milyard manat təşkil edirdi. Qiymətli kağızları ancaq Dövlət bankı buraxırdı (istiqraz və s.). 1914-cü ildə Şərqi Slavyan ölkələrində 53 səhmdar-ticarət bankı və onların 778 filialı vardı (4, 274).

Öyrənilən dövrdə kredit və borc şirkətlərinin sayı bir neçə dəfə artmışdı. Əgər 1900-cu ildə 117 belə şirkət vardısa, 1914-cü ildə bu, 1108-ə çatmışdı. Bu şirkətlərin kapitalı 865 mln. man. təşkil edirdi. Bunlardan əlavə 317 şəhər bankı 245 mln. manat vəsaitlə fəaliyyət götərirdi (4, 275).

Torpaq məsələləri ilə başlıca olaraq Kəndli və Zadəgan torpaq bankları məşqul olurdu. Bunlardan əlavə yerlərdə 8 zadəgan bankı və 10 səhmdar torpaq bankı və 36 şəhər kredit cəmiyyəti torpaqla əməliyyat aparırdı. Dünya müharibəsi ərəfəsində bütün torpaq bankları 5,4 milyard manatlıq girov vərəqələri buraxmış və 5,3 milyard manatlıq borc vermişdi. Kredit şirkətləri borcu şəhər torpaqlarının girovu əvəzində buraxırdı. Yuxarıdakı 5,3 milyard manatın 60%-ə qədərini mülkədarlar götürmüşdülər. Bu bir daha göstərir ki, hökumət torpaq bankları sistemindən əsasən iri torpaqların saxlanılmasında istifadə edirdi (4. s. 276).

**İnhisarçı kapitalizm.** Şərqi Slavyan ölkələrində inhisarçı kapitalizmə keçiddə həlledici rolu istehsal və kapitalın təmərküzləşməsi oynayırdı. Cənub regionunda xarici kapital və hökumətin köməyi ilə elə ilk gündən ən iri müəssisələr yaradılırdı. İri inhisarların təşkili əsasən XX əsrin əvvəlinə təsadüf edir. 1902-ci ildə «Rus metallurgiya zavodlarının məmulatını satan cəmiyyət» («Prodamet») təşkil olundu. Ticarət məqsədi ilə yaradılan bu cəmiyyətin əsas kapitalı heç 1 mln. manat da (900 mln. man.) deyildi. Lakin bu inhisar nəinki Rusiya imperiyasında, hətta dünyada ən böyük inhisarlardan biri hesab olunurdu. «Prodamet» 13 iqtisadi regionu əhatə edirdi. Cəmiyyətin tərkibində 30-dan çox iri metallurgiya zavodu birləşmişdi. Müəssisələr bütün metallürgiya müəssisələrinin beşdə birini təşkil etməsinə baxmayaraq, bu sahədə istehsal edilən bütün məhsulun 80%-nə qədərini (255 mln. man.) məhz «Prodamet» müəssisələri verirdi. 1912-ci ildə «Prodamet» dəmirin 83,4%-ni, lay dəmirin 81,2%-ni, rels istehsalının 75,7%-ni vermişdi. İnhisarlar qiymətləri bahalaşdıran kimi bütün sahələrdə istehsalı ixtisar edirdilər. 1907-ci ildə Ural zavodları birləşərək «Krovlya» inhisarını təşkil etdilər. Lakin «Prodamet»lə rəqabət

aparmaq bu inhisar üçün çətin idi. 1902-ci ildə daha bir inhisar – «Trubo prodaja» yaradıldı. Bütün truboprokat istehsalı ilə məşğul olan müəssisələr buraya daxil edilmişdi. İmperiya üzrə məftil və mismar istehsal edən müəssisələr isə 1904-cü ildə «Qvozd» inhisarında birləşmişdi. 1908-ci ildə inhisar dağılandan sonra onun əvəzinə «Provolka» təşkil edildi (4, 278; 1, 72-73).

1904-cü ildə daha bir inhisar – «Donbas hövzəsi mineral yanacağı ilə ticarət cəmiyyəti» («Produqol») təşkil edildi. Bu rayonlardakı şaxtaların 75%-i inhisara baxırdı. Donbas və Krivoy Roqda daha bir sindikat – «Prodarud» (1907) fəaliyyət göstərirdi.

Nəqliyyat maşınqayırması sənayesində iki sindikat yaradılmışdı. Onlardan biri «Prodvaqon» idi ki, 13 zavodu birləşdirirdi (1904). İkincisi isə «Parovoz istehsal edən zavodların İttifaqı» (1906) 8 zavodu əhatə edirdi. Elə bu illərdə əlvan metallurgiyada «Mis» sindikatı (1907) yaradıldı ki, ilk vaxtlar buraya 7 zavod, o cümlədən Gədəbəy mis zavodu daxil edilmişdi. Bir sıra sənaye sahəsi demək olar ki, bütünlüklə inhisarlaşmışdı. Neft sənayesi buna misal ola bilər. Amma neft inhisarlarının həyata keçirdikləri siyasət nəticəsində burada inkişaf müşahidə edilmirdi. Onlar sənayeni yeni avadanlıqla təchiz etmədiklərinə görə məhsuldarlıq aşağı, neft hasilatı az olurdu. Burada təmərküzləşmə yüksək səviyyədə olduğuna görə, ildə 10 mln. puddan çox neft çıxaran 16 firma bütün neft quyularının 55%-ni və hasilatın 66%-ni öz əllərində toplamışdılar. Ağ neft satışının 70%-i isə iki inhisarın – Nobel qardaşları şirkəti və «Mazut» kartelinin ixtiyarında idi. Əlbəttə, bundan əlavə neft sənayesində beynəlxalq inhisarlardan «Oyl» və ingilis-Daniya inhisarı «Şell» də hökmranlıq edirdilər (1, 27-28; 69-71).

Yüngül sənayedə də inhisar yaranmışdı (1902). Buraya əsasən Mərkəzi – sənaye rayonu fabrikləri daxil edilmişdi. İqtisadi yüksəliş illərində inhisarlar xeyli artmışdı. 1911-ci ildə şüşə zavodları və 1912-ci ildə kabel istehsal edən zavodları birləşdirən sindikat («Elektroprovod») təşkil edildi. Sənaye sahələrində inhisarlarla yanaşı dövlət inhisarçı müəssisələri də yaradılırdı. 1902-ci ildə təşkil edilmiş və 1915-ci ilədək fəaliyyət göstərmiş «Dəmir yol sifarişlərini tənzim edən Komitə» buna misal ola bilər. Bu orqan sonradan böyüyərək dövlət – inhsar təşkilatına çevrilmişdi. «Gəmiqayırma üzrə müşavirə» (1908-1912) də belə dövlət – inhisar təşkilatlarından idi. Su nəqliyyatının növlərini və qismən də dəmir yolunu əhatə edirdi. Dünya müharibəsi illərində dövlət-inhisarçı təşkilatların sayı xeyli artmışdı.

Buna baxmayaraq, haqqında danışılan ölkələr dünya sənaye məhsulunun 1913-cü ildə yalnız 5,5%-ni verirdi. İstehsalın həcminə görə Şərqi Slavyan ölkələri Amerikadan 8 dəfə, adambaşına düşən məhsula görə isə 13 dəfə geri qalırdı.

Sənayenin inkişaf sürəti yüksək olduğuna görə 1910-1913-cü illərdə sənaye yüksəliş dövrü keçirirdi. Kömür çıxarılması burada 40%, Amerikada 20% olmuşdu. Şərqi Slavyan ölkələrinin iqtisadi inkişaf səviyyəsi orta səviyyə hesab oluna bilərdi. Kömür çıxarılması və çuqun əridilməsində onlar dünyada 5-ci yeri, polad əridilməsi və maşınqayırmada 4-cü, başqa filiz çıxarılmasında

6-cı, marqansda 1-ci, neftdə 2-ci və mahlıcda 3-cü yeri tuturdular. Hər fəhləyə düşən məhsulun həcminə görə Şərqi Slavyan ölkələri çox geridə qalırdı. 1910-cu ildə bu ölkələrdə bir fəhlə 1810 manatlıq məhsul istehsal edirdisə, bu, Amerikada 6264 manata bərabər idi. Bu, hər şeydən əvvəl texniki təchizatla bağlı olmuşdu (4, 265).

Metallurgiya sənayesində Şərqi Slavyan ölkələri yenə də Avropa ölkələrindən geri idi. 1913-cü ildə bir rus fəhləsinə 205 ton metal düşürdüsə, Amerikada bu, 811 ton, Almaniyada 404 ton olmuşdu. Rusiyaya hələ də xaricdən metal kətirilirdi. 1913-cü ildə xaricdən 6 mln. pud və 1914-cü ildə isə 9 mln. pud metal gətirilmişdi.

Şərqi Slavyan ölkələrinin sənayesinin strukturu sahələr üzrə çox fərqlənirdi. Toxuculuq sənayesi fəhlələrin sayına görə (720 min nəfər) 1-ci yerdə gedirdi. Ondan sonra maşınqayırma və metallurgiya (372 min) və dağ-mədən sənayesi (365 min), yeyinti (294 min) sənaye sahələri gəlirdi. Sənaye məhsulunun 25,9%-ni toxuculuq sənayesi, 25,9%-ni isə yeyinti sənayesi verirdi. Deməli, ümumi  sənaye məhsulunun yarıdan çoxunu yalnız iki sənaye sahəsi verirdi (6, 304).

XX əsrin əvvəllərində yeni sənaye rayonları da yaranmışdı. Şərqi Sibirdə yeni qızıl mədənləri aşkar edilmişdi.

Kənd təsərrüfatı maşınları istehsal edən zavodların sayı 1900-cu ildəki 181 ədəddən 1912-ci ildə 284-ə çatmışdı. Dünya müharibəsi ərəfəsində bu ölkələrdəki 2509 maşınqayırma (hərbi zavodlar da buraya daxildir) müəssisəsində 450 mindən çox fəhlə çalışırdı. Onların illik istehsal məhsulunun dəyəri 830 mln. man. bərabər idi. Amerikada maşınqayırma sənayesi ümumi sənaye məhsulunun 50%-ni, Almaniyada 21%-ni verirdisə, Şərqi Slavyan ölkələrində bu, 3,5-4% təşkil edirdi. Ona görə də bu ölkələrə yalnız 1912-ci ildə 150 mln. manatlıq müxtəlif növ maşın idxal edilmişdi.

Toxuculuqda da başqa ölkələrlə müqayisədə Şərqi Slavyan ölkələri xeyli geri qalırdı. 1914-cü ildə Amerikada 5,7 mlrd. metr parça istehsal edilmişdi. Haqqında bəhs edilən ölkələr isə bundan 4 dəfə az məhsul vermişdi. Şərqi Slavyan ölkələri özlərini yunla təchiz edə bilmirdilər. 1914-cü ildə bu ölkələr xaricdən 58 min ton yun almışdı.

1913-cü ildə Cənubi Qafqaz Rusiya toxuculuq məhsulunun 7%-ni vermişdi.

Ukranya XX əsrin əvvəllərində Rusiya imperiyasının ən inkişaf etmiş milli ucqarı idi. Burada imperiya əhalisinin 18%-i, müəssisələrin 20%-i, fəhlələrin 15%-i cəmləşmiş və məhsulun 18%-i istehsal edilirdi. Ukraynadan sonra Ural və şimal-qərb regionu dururdu. Daha sonra Pribaltika və Cənubi Qafqaz gəlirdi. Cənubi Qafqazda əhalinin 3,9%-i və fəhlələrin 3%-i yerləşsə də məhsulun 7%-i bu regionda istehsal olunurdu.

Sibir, Uzaq Şərq, Qazaxıstan və Mərkəzi Asiyada sənaye zəif inkişaf etmişdi. Türkistanın ucsuz-bucaqsız ərazisində imperiya fəhələrinin 0,5%-i (22 min nəfər) cəmləşmişdi. Bunun 8 mini pambıqtəmizləmədə, 2,2 min ipəksarımada və 2 minə yaxını pambıq yağı isehsalında çalışırdı. Daş kömür, qızıl və

neft çıxarılması geniş vüsət almamışdı. Sibirdə fəhlələrin 3,5%-i cəmləşdiyi halda region məhsulun 1,8%-ni istehsal edirdi.

Bankların sənayeyə nüfuzu güclənimşdi. Yüngül və yeyinti sənayesində Rus-Asiya (79 mln. man.) və Azov-Don (93 mln. man.) banklarının rolu böyük idi. Müharibə ərəfəsində əmtəə əməliyyatları daha da artmışdı.

Bankların iri inhisarlara maliyyə köməyi güclənmişdi. İnhisar müəssisələrinə qoyulmuş kapitalın 40%-i, yəni 3687 mln. manata qədəri «Produqol», «Prodamet», neft, metallurgiya və sement itehsalına gəlirdi.

XX əsrin əvvəllərində bankların ən iri sənaye müəssisələri arasında şəxsi uniya (uniya latın sözüdür və birlik, birləşmə deməkdir. Dövlətlər və kilsələr arasında da təşkil edilirdi-T.V.) forması geniş yayılmışdı. Məsələn, Rus-Asiya bankının diretkoru A.Putilov eyni zamanda «Lianozov və K$^{O}$» neft cəmiyyətinin, «Emba-Kaspi» inhisarı idarə heyətlərinin icraçı direktoru idi. Bankların sənaye ilə «şəxsi uniyaları» bankların hökumətlə şəxsi uniyası ilə tamamlanırdı. Bəhs edilən dövrdə iri inhisarların, xüsusən bank inhisarlarının iştirak sistemi geniş yayılmışdı. Banklar müəssisələrin səhmlərini satın almaq yolu ilə onları özlərindən asılı vəziyyətə salmaqla onların fəaliyyətinə də tam nəzarət imkanı əldə edirdilər. Əvvəlcə maliyyə köməyi göstərir, sonra isə tədricən onları «öz müəssisələrinə» çevirirdilər (4. s. 278).

Zadəgan və başqa torpaq banklarının əməliyyatı genişlənmişdi. 1889-1913-cü illərdə səhmdar torpaq bankları 24 mln. des sahəsi olan 58 min mülkü girov götürüb əvəzində 900 mln. man. borc vermişdilər. Kəndli torpaq bankı isə 2 milyard man. dəyəri olan 17,5 mln. des torpağın girovu əvəzində 1,5 milyard man. borc buraxmışdı (4, 276).

1913-cü ildə fəhlələrin sayı 18 mln. nəfər idi. Amma son hesablamalara görə bu rəqəm 22 mln. nəfərdən çox olmuşdur (5, 171).

Beləliklə, məqalədə gətirilmiş çoxsaylı statistik materialların hərtərəfli təhlili göstərir ki, XX əsrin əvvəllərində Şərqi Slavyan ölkələri hələ də aqrar-sənaye ölkələri olaraq qalırdılar.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 7 cilddə, V c.. Bakı: Elm, 2001, 629 s.
2. T.T.Vəliyev. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: Elm, 1987, 256 s.
3. T.T.Vəliyev. XX əsrin əvvəllərində Şərqi Slavyan ölkələrində kənd təsərrüfatının inkişafı tarixindən. //Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası). Bakı, 2010, №3, s. 171-178.
4. История СССР. В 12-ти томах, IV T., M.: Наука, 1968, 854 с.
5. Рашин А. Формирование рабочего класса России. Историко-экономический очерк. М.: Политиздат, 1958, 623 с.
6. Хромов П.А. Экономическое развитие России в Х1Х-ХХ веках. М.: Политиздат, 1950, 551 с.
7. Шепелев Я.Ч. Акционерные компании в России. Л.: Наука, 1973, 347 с.

# ИЗ ИСТОРИИ ПРОМЫШЛЕННОСТИ В ВОСТОЧНОСЛАВЯНСКИХ СТРАНАХ В НАЧАЛЕ XX ВЕКА

**Т.Т.ВЕЛИЕВ**

**РЕЗЮМЕ**

Экономический кризис в 1900-1903 гг. охватил почти все отрасли экономики. Несмотря на это, с 1909 года началось бурное развитие промышленности этих стран. В статье, на основе многочисленных фактов, показан рост промышленной продукции, а также всесторонне анализирована деятельность акционерных обществ и монополий, господствующих во всех отраслях промышленности в Восточнославянских странах.

**Ключевые слова:** кризис, оживление, развитие, производство, акционирование, монополия, банк, сумма, импорт, экспорт

# ON THE HISTORY OF INDUSTRY IN COUNTRIES OF EASTERN SLAV AT THE BEGINNING OF THE XX CENTURY

**T.T.VALIYEV**

**SUMMARY**

Economical crisis of 1900-1903 had influenced all branches of industry. However, 1900 gave an impetus to the development of industry in these countries. The article studies the growth of industrial production and profoundly analyzes the activity of stockholding societies and monopolies dominating in all the branches of the industry of Eastern Slav countries. The author refers to a number of actual materials in the research.

**Key words**: crisis, revival, development, produce, shareholder, monopoly, bank, import, export, sum.